**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜLNAR ZAKİR QIZI OSMANOVA**

# ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MİFOLOGİZM (1980-2010-CU İLLƏR)

5719.01 - Folklorşünaslıq

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2017**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Kamran İmran oğlu Əliyev**
Əməkdar Elm Xadimi,
AMEA-nın müxbir üzvü

**Rəsmi opponentlər:** **Qəzənfər Məhəmməd oğlu Paşayev**
filologiya üzrə elmlər doktoru, professor

**Əfzələddin Dağbəyi oğlu Əsgərov**
filologiya üzrə elmlər doktoru

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kafedrası

**Müdafiə** "__30___" iyun 2017-ci il tarixində saat ___ -da Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən FD 01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Aftoreferat "_____" __________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Milli-mənəvi varlıq anlayışını ehtiva edən folklor uzun əsrlərdən bəri xalqın adət-ənənələrini, düşüncə tərzini, davranış normalarını, dilini, ruhunu qoruyub yaşadan əsas enerji mənbəyi olmaqla yanaşı, milli mədəniyyətin bir çox sahələrinin, o cümlədən də bədii ədəbiyyatın dinamik inkişafında əvəzedilməz mənbə kimi çıxış edir. Xalq ruhunun incəliklərinə yaxından bələd olan sənət adamları müraciət etdikləri mövzuların uğurlu bədii həllinə o zaman daha çox müvəffəq ola bilirlər ki, yazdıqları əsərlərin dil və ruhunda folklor koloriti də yetərincə yer almış olsun. Qədim dövrlərdən bəri xalq təfəkkürünün məhsulu olan ən qiymətli, ən yaxşı əsərlər – nağıllar, əfsanələr, bayatılar, dastanlar və s. xalqın arzusuna, zövqünə, istək və amalına uyğun yaradılmışdır. Yazıçı və şairlər də məhz buna görə şifahi xalq ədəbiyyatının ölməz ideyalarından, obraz yaradıcılığından, ayrı-ayrı janrlarından, bu janrların müxtəlif şəkli xüsusiyyətlərindən hər zaman məharətlə bəhrələnmişlər. Bu səbəbdən folklorun yazılı ədəbiyyata təsirinin araşdırılması bütün dövrlərdə aktual məsələlərdən olmuşdur və bu, müasir dövrümüzdə də belədir.

Yazıçı və şairlərimizin hər zaman xalqın şifahi söz sənətindən, onun mifoloji təfəkkür qaynaqlarından bəhrələnməsinin müxtəlif forma və məzmun çalarları vardır. Bu forma və məzmun çalarları yazıçıların özlərindən, onların yaşadıqları ictimai-tarixi şəraitdən, yazıçıların qələmə aldıqları əsərlərin ədəbi növ və janrından, bir də müraciət olunmuş folklor mətninin xüsusiyyətlərindən asılıdır. Yəni folklor və yazılı ədəbiyyat probleminə qarşılıqlı təsir və münasibətlər çərçivəsində baxmaq vacibdir. Bu mənada istər XX əsrin 80 və 90-cı illərində, istərsə də XXI əsrdə postmodernist üslubda qələmə alınmış nəsr əsərlərində etnik düşüncədən süzülüb gələn mifik ənənə kifayət qədər özünə yer tuta bilmişdir. Həmin mifik ənənənin nədən ibarət olması, bu ənənənin Azərbaycan bədii fikrini nə dərəcədə inkişaf etdirməsi məsələlərinin aşkarlanması, onların milli mədəniyyətimizin gələcək inkişafı üçün əhəmiyyətinin müəyyən edilməsi də dissertasiyanın aktuallığını şərtləndirən amillərdəndir.

Məlumdur ki, yazıçıların qələmə aldıqları bəzi əsərlərdə folklor nümunəsi açıq-aşkar şəkildə özünü göstərir. Bu hal folklor nümunəsindən olduğu kimi istifadə etdikdə, onları əsərlərin sərlövhəsinə çıxardıqda, folklor qəhrəmanlarının adlarını müəyyən münasibətlə xatırlatdıqda daha qabarıq formada görünür. Bəzən isə, xüsusən müasir yazılı ədəbiyyat nümunələrində şifahi xalq ədəbiyyatının elementləri heç də qabarıq şəkildə nəzərə çarpmır. Lakin diqqət etdikdə həmin əsərlərin mətnində, mətndaxili qatlarında, təhkiyə içərisində gizlənmiş formada güclü bir folklorizmin, o

cümlədən mifologizmin olduğunun şahidi oluruq. Elə son zamanlar mifologizm və folklorizm probleminə daha çox diqqət yetirilməsinin bir səbəbi məhz buradan qaynaqlanır. Digər səbəbi isə müasir bədii nəsrin xüsusiyyətləri ilə bağlıdır. Müasir dövrdə bir tərəfdən insanın həyat tərzində ciddi dəyişikliklər baş verir, cəmiyyətin dinamik inkişafı güclənir, informasiyanın həcmi çoxalır, başqa tərəfdən isə şüuraltı və irrasion olan qədim davranış arxetiplərinə, dünyanın dərkinin folklor düşüncəsinə maraq son dərəcə artır. Ona görə də nəsrdə obraz, motiv, süjet, xronotop formalarında özünə yer tutan mifologizmin müasir insanın həyat tərzi ilə əlaqəli olması problemin aktuallığını təmin edən mühüm cəhətlərdən biridir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın tədqiq obyektinə çağdaş Azərbaycan nəsrinin 1980-2010-cu illərdə müxtəlif müəlliflər tərəfindən yaradılmış nümunələri – roman, povest və hekayələr aiddir.

Tədqiqatın predmetini isə çağdaş Azərbaycan nəsrindəki mifoloji obraz, motiv və süjetlər təşkil edir. 1980-2010-cu illər nəsrində mifoloji obraz, motiv, süjetlərdən yaradıcı şəkildə bəhrələnmənin forma və üsullarını və onun mifoloji təfəkkürlə qarşılıqlı əlaqəsini öyrənmək tədqiqat predmetinin əsas istiqaməti kimi götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu araşdırmanın əsas məqsədi müasir Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji şüurun təsiri məsələsini öyrənmək, çağdaş nəsr əsərlərində mifologizmdən bəhrələnmənin forma və üsullarını müəyyənləşdirməkdir. Bu məqsədi gerçəkləşdirmək üçün aşağıdakı məsələlərin həlli əsas vəzifə kimi ön plana çəkilmişdir:

– Çağdaş Azərbaycan nəsrində mifologizmlərdən istifadə mexanizmini aşkara çıxarmaq;

– Çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji motiv və süjetləri tipoloji nöqteyi-nəzərdən araşdırmaq;

– Çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji obraz və mifoloji motivlərdən istifadənin mahiyyətindən bəhs etmək;

– Çağdaş Azərbaycan nəsrində mövcud olan özünəməxsus mifoloji şüuru tədqiq etmək;

– Nağıl və dastan xronotopunun çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) inikas üsullarını aşkarlamaq;

– 1980-2010-cu illərdə nəsr sahəsində yazıb-yaradan sənətkarların və onların ədəbi irsinin folklorla ideya-estetik yaxınlığını şərtləndirən amilləri aydınlaşdırmaq və s.

**Mövzunun öyrənilmə dərəcəsi.** Mifofolklor poetikanın ənənələri müasir mədəniyyətin bütün sferalarının inkişafında, həmçinin bədii nəsrdə

vacib amilə çevrilmişdir. Bu ənənələr M.Süleymanlı, İ.Əfəndiyev, Anar, Elçin, Y.Səmədoğlu, K.Abdulla və başqa yazıçıların yaradıcılığında izlənilir. Sözügedən sənətkarların əsərlərində mif və folklordan prinsipial istifadənin müəyyən metod və üsulları formalaşmışdır. Lakin bu əsərlərdəki mifologizmlər – mifoloji obraz və motivlər kifayət qədər araşdırılmamışdır.

Bir sıra tədqiqatçılar mifoloji təsəvvür və əski inanışlardan bəhrələnmənin müasir Azərbaycan bədii nəsrinə gətirdiyi məzmun yeniliyi haqqında fikirlər söyləmişlər. Professor M.Kazımoğlu, professor K.Əliyev, professor F.Bayat, professor A.Hacıyev, filologiya üzrə elmlər doktorları X.Bəşirli, P.Bəkirqızı və başqalarının bu istiqamətdəki elmi təhlilləri öz nəzəri səviyyəsi ilə diqqəti çəkir. Qeyd edək ki, prof. A.Hacıyev Azərbaycan və rus nəsrinin bu aspektdə araşdırılmasına həsr olunmuş "Müasir bədii nəsrdə (70-80-ci illər) mifologizm və folklorizm məsələsi" adlı tədqiqat işi yazmışdır. Adından da göründüyü kimi, bu tədqiqat XX əsrin 70-80-ci illərinin nəsr sahəsindəki bədii məhsullarını əhatə edir. Lakin ötən əsrin 80-ci illərindən sonrakı və XXI əsrin əvvəllərinin Azərbaycan nəsri bu kontekstdə ayrıca araşdırılmamışdır. Mövcud dissertasiyada da məhz həmin dövrdə yazılmış bir çox nəsr nümunələri araşdırma obyektinə çevrilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın nəzəri-metodoloji əsasını tanınmış folklorşünas və ədəbiyyatşünasların şifahi xalq ədəbiyyatına dair, o cümlədən xalqın mifoloji təfəkkürü ilə bağlı elmi-nəzəri fikirləri təşkil edir.

Tədqiqatda müqayisəli-tipoloji yanaşma metodundan istifadə olunmuşdur. Dissertasiyada nəzəri-metodoloji baza kimi mifologiya və yazılı ədəbiyyat münasibətlərinin öyrənilməsinin Azərbaycan, rus, türk və dünya elmindəki uğurlarına istinad edilmişdir. Azərbaycan və dünya folklorşünaslığında, xüsusən XX əsrdə folklor, mifoloji düşüncə və yazılı ədəbiyyat münasibətlərinin öyrənilməsinə dair çoxsaylı tədqiqatların təcrübəsi bu dissertasiyanın nəzəri-metodoloji əsaslarını təşkil edir.

**Tədqiqatın elmi yenilikləri.** Dissertasiya işinin elmi yeniliklərini şərtləndirən başlıca amil 1980-2010-cu illərdə çağdaş Azərbaycan nəsrində mifologizm mövzusunun müasir elmi-nəzəri aspektdən sistemli şəkildə ilk dəfə öyrənilməsindən ibarətdir. Tədqiqatda əldə olunmuş elmi yenilikləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– Müasir nəsr əsərlərində mifologizmə müraciətin səbəbləri, forma və üsulları öyrənilmişdir;

– Mifoloji obraz, süjet və motivlərə müraciətin özünəməxsusluğu və bu zaman yazıçıların həyata keçirdiyi yaradıcılıq maneraları üzə

çıxarılmışdır;

–Nəsr əsərlərində tarixi-mifoloji yaddaşın, əski inanışların bu günün hadisələri ilə uzlaşan gizli qatları mifik təfəkkürün əsas təzahürü kimi səciyyələndirilmişdir;

–Tədqiqatda oxşar mifoloji motivlər, süjet uyğunluqları tarixi-müqayisəli və nəzəri-tipoloji təhlillər əsasında üzə çıxarılmışdır.

–Bədii nəsrdə rast gəlinən mifologizmlər Azərbaycan, eləcə də dünya folklor nümunələri ilə müqayisəli şəkildə tədqiqata cəlb olunmuşdur.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə olunmuş nəticələrə yazıçı və folklor, bədii nəsrdə mifologizmlərin inikası, 1980-2010-cu illər Azərbaycan nəsrinə mifoloji təfəkkürün təsiri problemlərinin tədqiqində nəzəri mənbə kimi yanaşmaq olar. Tədqiqat işindən folklorşünaslıq və müasir ədəbiyyatın tədrisində yardımçı vəsait kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müxtəlif elmi nəşrlərdə və konfrans materiallarında məqalələr şəklində çap edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" bölümündə mövzunun aktuallığından, işlənmə dərəcəsindən, tədqiqatın obyekt və predmetindən, məqsəd və vəzifələrindən, elmi yeniliyindən, metodoloji əsaslarından, nəzəri və praktik əhəmiyyətindən bəhs olunur, işin aprobasiyası və quruluşu barəsində məlumat verilir.

Dissertasiyanın **"Çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji obrazlar"** adlı **I fəslində** nəzərdə tutulan məsələlər dörd yarımfəsildə təhlil edilir. ***"Çağdaş Azərbaycan nəsrinin mifoloji kontekstinin nəzəri aspektləri və mifologizmdən istifadə üsulları"*** adlı *I yarımfəsildə* mövzunun nəzəri aspektləri və mifologizmdən istifadə üsulları ilə bağlı müəyyən elmi fikirlər irəli sürülür.

Yazılı ədəbiyyatda özünü göstərən əsas cəhətlərdən biri mifologiyadan, miflə bağlı qaynaqlardan bəhrələnmək, onlardan səmərəli və məqsədəuyğun şəkildə istifadə etməkdir. Belə ki, dünya üçün zəngin bir irsə çevrilən mif yaradıcılığı bəşəriyyətin mədəniyyət tarixinin vacib

hadisəsi olub minilliklər ərzində insanın ruhi aləmi üzərində dominant rol oynamışdır. Bədii yaradıcılıq üçün də mənbə rolunu oynayan mifoloji elementlər, mif mətnləri, mifə aid süjet və obrazlar dünya ədəbiyyatında, istər klassik, istərsə də müasir bədii əsərlərdə həmişə izlənmişdir.

U.B.Dalqatın fikrincə, mifologizm müasir ədəbi-folklor problemlərinin fəlsəfi mənasının dərkinin yeganə üsulu hesab edilməsə də, müəllif əmindir ki, sadalanan folklor növləri bir çox müasir yazıçılara qədim mifik zamanlardan bəri bədii yaradıcılıq prosesində yığılıb qalan bəşəriyyətin emosional enerjisini istifadə etməyə kömək edir[1].

Çağdaş nəsrdə mifologizmdən istifadə üsullarına gəldikdə isə mifologizm müəllifin reallığa baxışında və əsərin poetik sistemində yer alır. Müəllifin reallığa baxışında mifologizm 2 formadadır: a) bədii mətnin strukturunda mifologizm, b) obrazın təşkilində mifologizm.

Müasir nəsr əsərlərinin poetik sistemində mifofolklor ənənələr isə əsərlərin kompozisiyasında, süjetyaratmada və xronotop şəklində özünü göstərir. Bundan başqa, mifologiya və folklorla bağlı xüsusiyyətlər janr yaradan amillər kimi də çıxış edir. Prof. Kamran Əliyevin də qeyd etdiyi kimi: "Hər hansı bir folklor mətni xalq tərəfindən yaradılırsa və xalq həmin mətndə öz təfəkkür tərzini ortaya qoyursa, həmin xalqın sənətkar nümayəndəsinin qələmə aldığı bədii əsərdə də folklor nümunəsində müşahidə olunan müəyyən cizgilər özünü kifayət qədər büruzə verməlidir"[2].

Dissertasiyanın *I fəslinin* ***"Çağdaş Azərbaycan nəsrində təbiət kultları ilə bağlı obrazlar"*** adlanan *II yarımfəsli* özü də iki bənddən ibarətdir. ***"Ağac, dağ, su və od obrazları"*** adlı I *bənddə* yazıçıların bu obrazlara müraciətinin özünəməxsusluğu və bu zaman istifadə etdikləri yaradıcılıq maneraları üzə çıxarılır.

Hər bir folklor materialının yaranmasında xalq təxəyyülünün məhsulu olan mifik dünyagörüş böyük rol oynayır. Təbiətlə bağlı olan kultlar, inamlar da mifopoetik formada təbii obyektlərin üzərinə köçürülür. Mifoloji düşüncənin obyekti olan ağac, dağ, su, od və s. bilavasitə təbiətin özüdür.

Dünya xalqlarının, bu sıradan türk xalqlarının mədəniyyətində geniş yayılmış təbiət kultlarından biri də ağacdır. Müasir Azərbaycan nəsrində də ağac obrazına tez-tez rast gəlinir. Belə nəsr nümunələrindən biri də K.Abdullanın "Üçrəng pişik balası" (2009) hekayəsidir. Burada ağac həm obraz, həm də məkandır. Ağac yazıçının əsərlərində mistifikasiyaya xidmət

---

[1]Далгат У.Б. Литература и фольклор. Москва: Наука, 1981, с. 67

[2]Əliyev K. Romantizm və folklor. Bakı: Elm, 2006, s.122

edərək insanın, dünyanın, varlığın yaranma səbəbini aydınlaşdırmağa yardımçı olur. Bu hekayədə məkanın daxilində mediativlik, həm də mifiklik qatı gizlənir. Burada qarağac obrazı türk mifoloji təfəkküründə dərin kök salmış "dünya ağacı" obrazının ümumiləşmiş ifadəsidir.

Xalq yazıçısı Elçin "Ağ dəvə" (1984) əsərində tez-tez ağaclarla bağlı aşağıda nümunə kimi verdiyimiz cümlələrə bənzər ifadələr işlədərək onların sanki canlı olmasını, insan kimi danışa, gülə, ağlaya bilməsini göstərmişdir: "O tut ağacının ağlamağı indiyədək yadımda qalıb"; "Yüngül bir meh əsdi və o yüngül meh o qollu-budaqlı söyüdün yenicə göyərməyə başlamış körpə yarpaqlarını tərpətdi və mənə elə gəldi ki, əslində o yarpaqlar məni salamladı"; "Mənim söyüdüm güldü" [1] və s.

Belə nəticəyə gəlmək olar ki, türk etnik-mədəni ənənəsində hər bir ağacın bir canlı varlıq olduğuna etiqad edilmişdir. Odur ki, çinar, söyüd, alma, nar, qoz və s. ilə bağlı simvolların dünya (həyat) ağacının əsrləri keçib gələn rəmzi pöhrələri olması fikri yaranmışdır. Göründüyü kimi, ağac (söyüd, qarağac, palıd, küknar, pişpişə) kultu, bitki simvolu türk mədəniyyətinin mühüm anlayışıdır.

Xalq arasında geniş yayılmış inancların bir qismi də türklərin tapındığı ilkin təbiət varlıqlarından biri olan dağa pərəstişlə bağlıdır. Elçinin "Mahmud və Məryəm" romanında biz dağ kultu ilə bağlı inama rast gəlirik. Əsərdə dağ əyəsi Dağlı arvad adlanır. Qeyd edək ki, dağ ruhunun qadın olması ilə bağlı inamlar bir çox türk xalqlarının folklorunda və mifologiyasında mövcuddur. Dağa inam və pərəstiş, dağın müqəddəs tutulması mifoloji düşüncədə onun kosmoqoniya, yəni yaradılış ilə bağlı obrazını yaratmışdır. Prof. C.Bəydilinin fikrincə, mifopoetik dünya modelində dağ dünyanın öz obrazıdır. Kosmik nizamın bütün parametrlərini özündə əks etdirən dağ dünyanın tam mərkəzində ucalan sakral güc qaynağıydı və ulu başlanğıc, kök, soyun əsası, ana yurdun rəmzi kimi qavranırdı. Bu mənada dağlara tapınma türk kosmoqonik görüşlər sistemində də əhəmiyyətli yer tutmuşdur[2].

"Mahmud və Məryəm" romanında belə bir təsvir vardır: "Mahmud bu sözləri deyə-deyə atın başını döndərib çapdı. Çaldıran düzündən uzaqlaşdı, amma elə bil Dağlı Arvad dağlardan enib Çaldıran düzünə gəlmişdi – Mahmudun sözləri qarğa-quzğunun səsi ilə bir müddət əks-səda verdi"[3].

---

[1]Elçin. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, s. 161; 183: 184

[2]Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, s. 87

[3]Elçin. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, s. 324

Əfsanəyə görə, əks-sədanı verən də məhz dağlarda yaşayan gözəgörünməz qadındır. Azərbaycan türk folklorunda "Alvız" deyilən dağ ana obrazı var. Bu dağ əyəsidir. Buradan görünür ki, xalqımızın folkloruna, onun mifoloji təfəkkürünə yaxından bələd olan Elçin bu obrazı əsərdə verməklə onu daha zənginləşdirmişdir.

Prof. Q.Paşayev xalq yazıçısı Elçinin bədii yaradıcılığının şifahi xalq ədəbiyyatı ilə qarşılıqlı əlaqələrindən bəhs edərkən yazır: "Elçinin yaradıcılığını izləyəndə açıq-aşkar görünür ki, "Mahmud və Məryəm" təsadüf nəticəsində yazılmamışdır. Həqiqətən də, millilik və müasirliklə bərabər, folklor yazıçının əsərlərinin ana xəttini təşkil edir"[1].

"Mahmud və Məryəm" əsərini dastan poetikasının müasir nəsrdəki təzahürü kimi qiymətləndirmək olar. Elçin romanda həm xalq təsəvvüf elementlərindən, həm də mifik obraz və motivlərdən məqsədli şəkildə bəhrələnmişdir. Yəni yazıçının romanda mifik təfəkkürdən bəhrələnməsi onun öz qarşısına qoyduğu fikir və ideyanın oxuculara daha yaxşı formada çatdırılmasının vasitəsinə çevrilir.

Xalq arasında geniş yayılmış, həmişə müqəddəs hesab edilən inamların bir qismi də məhz su kultu ilə bağlıdır. Türk mifologiyasında su əbədi başlanğıc olan xaosu bildirməklə yanaşı, özündə yaradıcı başlanğıcı birləşdirən bir mifologemdir. Su öz ətrafında silsilə etiqadlar və mərasimlər sistemini yaratmışdır. Su hətta ilin axır çərşənbələri sistemində ayrıca, həm də ilk bayram törəninin başlanğıcıdır. Çərşənbələrin birinin, özü də birincisinin su kultu ilə bağlılığı təsadüfi deyildir. Bu çərşənbə əslində bütün yaz mərasiminin onunla bağlı olma ehtimalını doğurur.

Su kultu ilə bağlı ritual İ.Şıxlının "Ölən dünyam" (1995) romanında öz bədii əksini tapmışdır: "Bu kəndin qaydası idi: ilin-ayın axır çərşənbəsində köhnə ili yola salanda, baharın gəldiyini xəbər verən Novruzun ilk günündə dan yeri qızarar-qızarmaz axar suya – Kürə tökülüşərdilər. Su bumbuz olub adamı qılınc kimi kəssə də, çimişər, ağırlıqlarını-uğurluqlarını yuyar, təzə ilə tərtəmiz gələrdilər"[2].

Mifoloji ənənələrdə insanı bir varlıq kimi digər canlılar aləmindən ayıran başlıca bir əlamət də oddur. Od-işıq kultuna müasir Azərbaycan bədii nəsrində də rast gəlinir. Belə ki, M.Süleymanlı "Köç" romanında Bəkillə Çiçəyin toy səhnəsində odun müqəddəsliyini belə vermişdir:

"Qarı qabağa gəldi. Əlindəkini Çiçəyə sarı uzatdı. Balaca daş odluq idi. İçində qor vardı, sehrli-sehrli közərirdi.

---

[1]Paşayev Q. Seçilmiş əsərləri. V cild. Bakı, "Təhsil", 2012, s. 567

[2]Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, s. 277-278

–Al, – dedi, – qızım, gözüm, bu, odun olsun, bu, sənnən-mənnən yeddi Çiçək oyanın közüdür. Axşam külə qor basdır, səhərə saxla, gözün üstündə olsun.

Çiçək odu götürdü, daş odluqdan üç kərə öpüb gözünün üstünə qoydu”[1].

Buradan da göründüyü kimi, türk etnik-mədəni ənənəsində od bir övliya bərabərində sayılan qüvvətdir. Od qalanan yer həmişə müqəddəs bilinmişdir.

*I fəslin II yarımfəslinin II bəndi* isə ***“Sakral kultlar və onqon obrazları”*** adlanır. Tarixən türk xalqları bir çox sakral kultlara, o cümlədən onqonlara sitayiş etmişlər. Azərbaycan şifahi xalq ədəbiyyatında da qurd, at, ilan kultları və müxtəlif quş onqonları ilə bağlı örnəklərə rast gəlinir. Lakin bu kultlar təkcə folklorda izlənmir, yazılı ədəbiyyatımızın müxtəlif nümunələrində də bəzən açıq, bəzən də üstüörtülü şəkildə yer alır.

Dissertasiyanın bu bəndində K.İmranoğlunun “Yalquzaq” (1996), H.Mirələmovun “Cəza” (2005) povestlərindəki qurd, S.Elcanlının “Qanlı quzğun meydanı” (1994) romanındakı quzğun, ilan, qurd, at obrazları, H.Arzulunun “Qaçaq Quşdan” (2000) romanındakı Səma quşu – qartal obrazları təhlil olunur və belə nəticəyə gəlinir ki, türk xalqlarının mədəniyyətində əsasən 3 sakral heyvan obrazının izlərinə rast gəlinir: 1) Yaxın və Orta Şərq ölkələrinin mifologiyasında Günəş və Səma allahının rəmzi sayılmış qartal, 2) türk mifologiyasında əcdadın ruhu, hami, xilaskar funksiyasını daşımış qurd və 3) qədim türklərin ictimai-siyasi və döyüş həyatında Günəşin yer üzünə bəxş etdiyi işıq qədər əhəmiyyətli rolu olan at.

*I fəslin* ***“Çağdaş Azərbaycan nəsrində demonoloji obrazlar”*** adlanan *III yarımfəslində* isə hal anası, cin, şeytan kimi demonik obrazlar təhlil olunur. Belə ki, müxtəlif əsatir və nağıl qəhrəmanları olan bu mifoloji obrazlar yalnız şifahi xalq ədəbiyyatı nümunələrinin deyil, həmçinin sənətkarlıqla işlənmiş yazılı ədəbiyyat nümunələrinin də qəhrəmanlarına çevrilmişdir. Bütün bunları İ.Əfəndiyevin Qarabağ camaatının həyatını, güzəranını, etnoqrafik cizgilərini, o cümlədən mifoloji düşüncəsini özündə əks etdirən “Geriyə baxma, qoca” (1980) romanı haqqında da söyləmək olar.

İ.Əfəndiyevin romanda yer verdiyi mifik obrazlardan biri də cindir. Yazıçının qəhrəmanları bəzi məsələlərin həllini tapa bilmədikdə baş verən hadisələrin səbəbini cinlərlə, digər mifik obrazların hərəkəti ilə bağlayırlar. Onlar işləri çətinə düşən zaman tez-tez bu cinlərin işidir, – deyirlər.

---

[1]Süleymanlı M. Üç roman. Bakı: Azərbaycan nəşriyyatı, 2004, s. 66-67

Xalq arasında belə bir inanc var ki, guya cinlər gecə atları tövlələrdən oğurlayıb çapır, hətta atların yalını hörürlər. Ümumi təsəvvürlərə görə isə onlar "bismillah"dan qorxub qaçırlar. Bunlar da əsərdə öz bədii əksini tapmışdır.

Şeytanla, cinlə bağlı inamlara Elçinin "Ağ dəvə" romanında da rast gəlinir. Əsərdə belə bir fikir var: "Od ki, gecə his elədi, bu o demək idi ki, gecə evə şeytan gələcək"[1].

Azərbaycan türklərinin təsəvvüründə şeytanla bağlı belə bir inam var: guya burağan olanda deyərlər ki, şeytan gəlin aparır. Yaxud başqa bir nümunədə yazıçı Ələkbərin dilindən belə bir inanc verir: "Mən həyətimizdəki krantdan təzə su götürməkçün çaynikin dibindəki qaynar suyu yerə tökəndə, anam qışqırırdı: " – Tökmə, tökmə isti suyu yerə! Tökülər cinin üstünə, yandırar, xataya düşərik!.."[2]

Bu nümunədən göründüyü kimi, xalq arasında tarixən belə bir inam yaranmışdır ki, qaynar suyu yerə tökəndə cinlər yandığına görə onlar insana xətər toxundururlar.

Azərbaycan mifoloji mətnlərində tez-tez qarşılaşdığımız mifik obrazlardan biri də Hal anasıdır. Hal anası xalq demonoloji təsəvvürlərinə görə xtonik mənşəli olub, yer altında yaşayan cinlərin anasıdır, o həm də ilkin başlanğıc olan su ilə bağlıdır. Bu mifoloji varlıq hamilə qadınların düşmənidir və təzə doğulan uşaqları öldürdüyü deyilir. İnanışa görə o, xarabalıq yerlərdə, köhnə dəyirmanda, su qırağında, qoz ağacının dibində olur.

Hal anası obrazına M.Süleymanlının yaradıcılığında tez-tez rast gəlinir. M.Süleymanlı tarixi etnoqrafik mədəniyyətimizin dərin bilicisi kimi milli təfəkkürün mənbəyi olan mifologiyaya həmişə müraciət etmişdir. Onun "Şeytan" (1978) povestində, "Quru kəllə" (1989) hekayəsində və "Köç" (1980) romanında bunun şahidi oluruq.

M.Süleymanlı "Köç" romanında xalq arasında Hal anasına inanışı, bununla bağlı yaranan fikirləri, Hal anasının dünyaya övlad gətirən vaxt qadınlara zərər verməsinin qarşısını almaq üçün görülən tədbirləri olduqca maraqlı bədii lövhələrlə əks etdirmişdir. O, Hal anasının inanışlara görə çox vaxt sarı saçlı təsəvvür edilməsini də romanda Sənəm xatının vəziyyətini bildirən "kimlərinsə sarı-sarı saçlarına dolaşa-dolaşa qaranlıq bir quyuya enirdi" cümləsi ilə vermişdir.

---

[1]Elçin. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, s. 110

[2]Yenə orada, s. 72

Dissertasiyanın I fəslinin ***"Çağdaş Azərbaycan nəsrində Xızır, pəri və dərviş obrazları"*** adlı IV yarımfəslində adındanda göründüyü kimi, bu personajların müasir nəsr əsərlərindəki yeri araşdırılır.

Azərbaycan folklor mətnlərində, eyni zamada istər klassik, istərsə də müasir yazılı ədəbiyyat nümunələrimizdə tez-tez rast gəlinən mifoloji obrazlardan biri də Xızırdır.

Xalq ədəbiyyatını və etnik düşüncəni yaxşı bilən, yaratdığı bədii obrazların daha da mükəmməl çıxması üçün onlardan səmərəli şəkildə faydalanan İ.Əfəndiyev də "Geriyə baxma, qoca" romanında Xızır peyğəmbərin darda olan insanların köməyinə çatması və qəfildən gözdən itməsi kimi xüsusiyyətlərini ustalıqla qələmə almışdır.

Xızırın butavermə funksiyasına isə İ.Məlikzadənin "Gümüşgöl əfsanəsi" (1984) povestində rast gəlirik. Povestdə Xızırın Bənövşənin yuxusuna girməsi faktı həm bununla bağlı əhvali-ruhiyyəni şirinləşdirmiş, həm də Bənövşənin daxilən saflığının nümayişinə çevrilmişdir. Bənövşə öz sevgilisi ilə son dərəcə səmimi bir tonda danışır, hətta Bənövşənin nitqinin ahənginə də sevinc duyğuları hakimdir. Bənövşə sevgilisinin atla deyil, maşınla gəlməsini də böyük fərəhlə qarşılayır, hətta onun, bəlkə də, həmişə yaddaşında olan ağ atlı oğlanın qətiyyən xiffətini çəkmir, çünki o, çox sakit bir tərzdə və məmnunluqla söyləyir ki, "sən mənim qismətimsən".

Povestdə Xızır obrazının bədii mətnə gətirilməsi yalnız Bənövşənin taleyində mühüm əhəmiyyət daşımaqla yekunlaşmır. Daha maraqlı bir cəhət isə ondan ibarətdir ki, bu obraz oxuculara da öz müsbət təsirini göstərmiş olur.

Xızırın adı Elçin yaradıcılığının zirvəsi olan "Mahmud və Məryəm" romanında da bir neçə yerdə çəkilmişdir. Yazıçı bu mifoloji obrazın funksiyalarını üstüörtülü şəkildə vermişdir. Romanda "Haqq sənə göndərsin Xızır İlyası", "Xızır daha heç vaxt Sofinin imdadına yetməyəcəkdi" fikirləri Xızırın xilaskarlıq funksiyası ilə bağlıdır.

Çağdaş bədii nəsrdə əfsanəvi personaj olan pəriyə də rast gəlinir. İstər Şərq, istərsə də Qərb mifologiyasında mövcud olan pəri obrazı sehrli nağıllarda xeyirxah qüvvə kimi çıxış edərək qəhrəmana kömək edir. "Geriyə baxma, qoca" romanında Qızyetər pərilər məclisinə gəlib çıxır. O, başına gələn əhvalatı, zalım sevgilisinin vəfasızlığını taxt-rəvanda əyləşən qıza – pərilər padşahına danışır. Pərilər padşahı da Qızyetərin sevgilisindən intiqamını alması üçün Kor Şeytanı yanına çağırıb deyir:

– "Bu gündən sən bu arvadın ixtiyarındasan, nə əmr etsə, yerinə yetirərsən!"[1].

---

[1]Əfəndiyev İ. Seçilmiş əsərləri. Üç cilddə. III cild. Bakı: Avrasiya Press, 2005, s.330

Göründüyü kimi, əsərdəki pəri qız demonik varlıq olan şeytanı Qızyetərin ixtiyarına verərək bir tərəfdən ona yardım etmək istəsə də, digər tərəfdən şər qüvvələrlə əlbir olmasına görə mənfi obrazdır.

Azərbaycan mifoloji mətnlərində tez-tez rast gəlinən obrazlardan biri də dərvişdir. Bu obraz yazılı ədəbiyyatımızda da yer almışdır. Prof. C.Bəydili dərviş obrazını araşdırarkən qeyd edir ki, "dərviş Ulu (Yer) Ana kompleksindən gəlmə şaman obrazının atributlarını daşıyır. Marginal keyfiyyəti ilə seçilən dərvişin yaşadığı yer xaotik zona xarakterli ola bilir. Bir sıra sehrli nağıllarda dərvişin Xızır, ağsaçlı nurani qoca kimi buta verməsindən onun o biri dünyaya məxsus varlıq olduğu da anlaşılır. Asimmetrik vəziyyətdə doğulan qəhrəmanı bəzən dərviş, məsələn, sehrli çubuq vuraraq həmin vəziyyətdən çıxarır"[1].

Xalq yazıçısı Elçin "Bülbülün nağılı" (1984) hekayəsində dərviş obrazını təbiətin fonunda oxuculara təqdim edir. Dərvişin görünməsi mətnin ahəngi ilə tam uyğunlaşır. Bu uyğunluq dərvişin özü ilə deyil, onun gəzdirdiyi bülbüllə bağlıdır. Əslində bülbül dərvişin deyəcəklərini nəğmənin dili ilə deyirdi.

K.Abdullanın "Sehrbazlar dərəsi" (2006) əsərində də Ağ dərviş, Hüsnükərəm kimi dərviş obrazları var. Mistik əhvalatların baş verdiyi "Sehrbazlar dərəsi" əsəri paralel dünyalar arasındakı ahəngdən, atası Cəlladbaşını axtaran Karvanbaşının taleyin hökmü ilə Sehrbazlar dərəsinə gəlib çıxmasından, burada ömür edən Ağ dərvişin və hər iki dünyada yaşayan Səyyah sehrbazın çağırdığı ruhla Karvanbaşının sonu faciəyə ilə bitən sirli görüşündən bəhs edən mistik romandır. Həyatın və insanın həyat yolunun dövriliyinin təsvir edildiyi "Sehrbazlar dərəsi" romanı zamanın müxtəlif mərhələləri – keçmiş və indiki dövr, mistik və gerçək aləm arasındakı hədləri silir. Müəllif özü də bu məqamı vaxtaşırı xatırladır. Burada zaman əsas deyil: istər həmişəyaşıl Sehrbazlar dərəsində yaşayan dərvişlərin mistik-utopik xronotopu, istərsə də real, bugünkü zaman öz əksini tapır.

Dissertasiyanın **"Çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji motivlər"** adlı **II fəslində** nəsrdə mifoloji motiv və süjetlərin tipologiyası barədə elmi təsəvvürlər ümumiləşdirilir. Bu fəsildə möcüzəli doğuluş, butavermə, quşaçevrilmə və mağara motivlərinin ayrı-ayrı nəsr əsərlərində bədii sistemə necə daxil olmaları araşdırılır. II fəslin I yarımfəsli ***"Çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji motivlərin tipologiyası"*** adlanır. Qeyd edək ki, müasir nəsrdə əsas süjetlərin tipologiyası onların mənşəyinə bağlıdır. İş orasındadır ki, süjet obraz funksiyası ilə müəy-

[1]Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, s. 101

yənləşir. Ən qədim süjetlər də vacib arxetipik obraz mənalarına əsaslanır. Buna görə də qədim süjetlərin sayı son dərəcə məhduddur və onları bir neçə tipoloji qruplara aid etmək olar. Belə ki, türk epik ənənələrinin əsas süjetləri mifoloji universumun 3 əsas kateqoriyası ilə bağlıdır: Dünya ağacı, günəş obrazı və su stixiyası.

Birinci süjet tipi – məhsuldarlıq simvolu olan Dünya ağacı mifologemi ölüm və yenidən yaranma, kosmos və xaos süjetləri ilə üst-üstə düşür.

İkinci süjet tipi günəşin arxetipik stixiyasına aparıb çıxarır. Bir çox motivlər gündüz-gecə, işıq-qaranlıq, yol-ev və s. kimi simvollar vasitəsilə reallaşdırılır.

Üçüncü süjet tipi su stixiyası ilə bağlıdır və zaman mövzusunu ifadə edir. Əbədi su axını haqqında təsəvvürlər arasında daimilik-keçicilik, təkrar olunan-təkrar olunmaz, anilik-əbədilik, cavanlıq-qocalıq kimi süjet motivləri fərqlənir.

Beləliklə, aydın olur ki, mifologiya ilə yazılı ədəbiyyat arasındakı əlaqədə miflər hər zaman yazılı ədəbiyyat üçün arxetip kod, yazılı ədəbiyyat isə miflərin genetik daşıyıcısı olmuşdur.

Dissertasiyanın II fəslinin II yarımfəsli ***“Çağdaş Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji motivlərin səciyyəsi”*** adlanır.

II yarımfəslin ***“Möcüzəli doğuluş motivi”***adlı bəndində bu motivin bədii nəsr əsərlərinin süjet xəttinə daxil olması təhlil olunur, eləcə də dünya folklor nümunələrindəki variantları ilə müqayisəsi verilir.

Çağdaş nəsrimizdə əsərin kompozisiya təşkilinin bir ənənəvi formasına rast gəlinir ki, bu, qəhrəmanı, situasiyanı, fikri və predmeti ayırd etməkdir. Qəhrəman özünün qeyri-adi simasının, qeyri-adi hərəkətlərinin, kollektivdəki xüsusi rolunun müfəssəl təsviri ilə fərqlənir. Bu minvalla hələ mətnin başlanğıcında qəhrəman digər surətlərdən ayrılır və seçilir. O, doğuluşdan qeyri-adi şəxsiyyət sayılır. Belə qeyri-adi qəhrəmanlardan biri də Elçinin “Mahmud və Məryəm” romanının baş qəhrəmanı Mahmuddur. O, cəmiyyətdə birmənalı şəkildə qarşılanmayacaq fərqli düşüncə sistemini nümayiş etdirir və özünün insanların bərabərliyinə, sevgiyə və ədalətə əsaslanan fəlsəfəsini irəli sürür. Lakin prof. A.Hacıyevin sözləri ilə desək, “Mahmud sadəcə ideya qəhrəmanıdır, buna görə də qəhrəmanın axtarışları ətrafında heç nəyi dəyişmir, Mahmudun öz faciəsi ilə yekunlaşır”[1].

Elçin “Mahmud və Məryəm” romanında “Əsli və Kərəm” dastanının mətninə sədaqət nümayiş etdirərək Mahmudun qeyri-adiliyini möcüzəli

---

[1]Гаджиев А. Мифологизм и фольклоризм в современной прозы. Баку: типография АПИРЯЛ, 1993, с. 92

doğuluş motivinə əsaslanaraq vermişdir. Bununla bərabər, "Əsli və Kərəm" dastanından fərqli olaraq, romanda Bədheybət Lal obrazı yaradılmışdır. Təbii ki, dastanın mətnində olmayan belə bir obrazın yaradılması yazıçı peşəkarlığının nəticəsidir və yazıçı bu obrazı bədii mətnə təsadüfi element kimi daxil etməmişdir. Dastan və nağıllarımızda qəhrəmanların möcüzəli doğuluşu ilə bağlı yer alan mifik personaj kimi Bədheybət Lalın əsərdəki rolu Mahmudun dünyaya gəlməsində bir sehrin, möcüzənin olmasını üzə çıxarır.

Elçin "Mahmud və Məryəm" romanında çətinliyə dirənmiş müşkül bir işin həllini məhz Bədheybət Lal kimi bir obraza həvalə etmişdir. Bu müşkül işin – Ziyad xanla Qəmərbanunun övladlarının olmaması probleminin aradan qaldırılması cəmiyyət içərisində yaşayan adi adamların, hətta Ziyad xan və Qəmərbanu kimi sayılıb-seçilən insanların gücü ilə həll edilə bilməzdi. Burada qeyri-adi bir varlığın köməyinə ehtiyac vardır. Belə bir kömək folklor nümunələrində Xızırdan və yaxud digər mifik obrazlardan gələ bilərdi. Hətta maraqlıdır ki, məsələnin həlli üçün Lala danışmaq vergisi də verilir.

Prof. M.Kazımoğlu da nağıl personajlarından bəhs edərkən yazır: "Zahiri gözəlliyi, fiziki gücü və ağıl-zəkası ilə başqalarından fərqlənən qəhrəmanların bir çoxu dərvişin verdiyi sehrli almadan, yaxud sehrli quşun yumurtasından, dərya atının içdiyi sudan və s. törəyən qəhrəmanlardır. Adi bir insan kimi doğulan nağıl qəhrəmanı isə qeyri-adi varlıqların, tutalım, hansısa aslanın himayəsi altında böyüyürsə, dönüb əsl bahadır ola bilir. Bu kimi misallarda himayəçi tərəf adi qüvvə olmaqdan çıxıb sakral mahiyyətli qüvvəyə çevrilir və nağıl qəhrəmanının yenilməz bahadır kimi yetişməsi həmin sakral qüvvənin hesabına mümkün olur"[1].

Tanınmış yazıçı S.Elcanlı da oxucular arasında geniş yayılmış və rəğbət qazanmış "Qanlı quzğun meydanı" əsərində mifoloji motivlərə müraciət edərək xalqın genetik yaddaşını, soykökə bağlılıq məsələsini həm real, həm də fantastik boyalarla verə bilmişdir.

Yazıçı əsərdə həm hunların zamanında qanlı Quzğun meydanında baş verən amansız müharibələri – tarixi əcdadlarımızın düşmənlərlə mübarizəsini, həm də müasir dövrdə baş vermiş 20 Yanvar hadisəsini təsvir edir. Beləliklə, zaman dəyişimi baş verir. Bundan başqa türkçülük ideyasını, milli özünəqayıdışı təlqin edən romanda çoxlu mifik-fantastik obrazlar, simvollar nəzərə çarpır və bunlar da əsərdə görünən dünya ilə mifik dünya arasında assosiasiya yaratmış olur. Belə ki, müəllif əsərin süjetinə qəhrəmanın möcüzəli doğuluşu motivini də əlavə etməklə maraqlı paralellər ortaya çıxarmışdır.

---

[1]Kazımoğlu (İmanov) M. Nağıllar barəsində bir neçə söz // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu. I cild, Bakı: Elm və təhsil, 2014, s. 23

Romanın əvvəllərində diqqəti mifik təfəkkürə yönəldən və əsərin ümumi ahəngi, ifadə etdiyi mətləb və ideyaya tam uğun olan belə bir fikir söylənir: "Çox-çox qədim zamanlarda Arhun adlı çay vardı. Ona Ceyhun da deyərdilər"[1]. Əsərin başlanğıcında söylənən bu fikrin müəyyən əsası var. Bu əsas romanda aydın şəkildə oxuculara çatdırılır. Başqa sözlə, romanın mətnindən məlum olur ki, Turan xatunun (Səlmi arvad) oğlu, igidlər igidi (Ceyhun Alpanqaya) toyunun sonuncu günü, qürub çağı Arhun çayından xeyir-dua almağa gəlir və birdən çaya yıxılır. Beləcə, o, Arhun çayında boğulub qəlbində, damarlarında axan dəlisov qüvvəyə qovuşur. Bu məsələyə də yazıçı bir az sonra tam aydınlıq gətirir: "Sən demə, ananın itkin oğlu min illər əvvəlin adamı imiş, Arhun çayı onun ruhuna qovuşubmuş, ona görə də elə qüvvətli, qüdrətli imiş. İyirmi bir il əvvəl mələk sifətli, tanrı qəlbli qız – Turan xatun toy günü sübh tezdən Arhun çayında çiməndə bu sudan içib hamilə olubmuş..."[2]

Lakin əsərin sonunda Arhun adlı atın qurumuş çay yatağında ölməsi ilə həmin çay yenidən axmağa başlayır. Bu da o deməkdir ki, Arhun adlı at sanki Arhun çayına qurban verilir və bundan sonra yoxa çıxan çay yenidən çağlayır.

S.Elcanlının "Qanlı quzğun meydanı" romanında bədii düşüncənin mifik dünyagörüşlə əlaqəsinə dair faktlar həm yazıçının mifologiyaya bələdliyinin, həm də miflərdən ustalıqla istifadə etmək bacarığının təsdiqidir. S.Elcanlı mifoloji motivdən yararlanarkən həmin motivi öz əsərinin ideya-məzmun istiqamətinə uyğunlaşdıra bilir.

Dissertasiyanın II fəslinin II yarımfəslinin ***"Butavermə motivi"*** adlı bəndində müasir nəsr nümunələrində rast gəlinən butavermə və onun növləri təhlil edilir. Azərbaycan şifahi xalq ədəbiyyatında maraqlı mifoloji motivlərdən biri də butavermədir. Belə ki, yuxuda qəhrəmanların buta almasını mifoloji-mistik əlaqə kodu adlandıran və öz tədqiqatlarında bu məsələyə ciddi əhəmiyyət verən prof. R.Qafarlı yazır: "Azərbaycan alimlərinin araşdırmalarında buta aşıq-sənətkarın, aşıq-dastan qəhrəmanının telepatlığı, fövqəltəbiiliyi, qeyri-adi istedada malikliyi, ilahiyə bir köynək yaxınlığı kimi şərh olunur və birbaşa ilahi aləmin seçmə insanlara verdiyi "hədiyyə" sayılır. Butanın dəqiq ünvanı qabaqcadan heç kəsə məlum olmur. Bir qayda olaraq, buta fərasətsiz, fərsiz, kimsəsiz, arxasız gənclərin yuxusuna qarışır"[3].

---

[1]Elcanlı S. Qanlı quzğun meydanı (Mifoloji-fantastik roman). Bakı: Gənclik, 1994, s. 17

[2]Yenə orada, s.18

[3]Qafarlı R. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika. Bakı: Elm və təhsil, 2015, s. 178

Prof. A.Nəbiyev də butavermə hadisəsinə münasibət bildirərkən onun yuxu ilə əlaqədar olması barədə yazır: "Bizə gəlib çatan qaynaqlarda "buta" mülayim, xoşqılıqlı, nurani qocalar tərəfindən cavanlara yuxuda "badə" içirmək yolu ilə verilir, aşiq-məşuqun surətləri bir-birinə tanıdılır, ünvanları bildirilir. Yuxuda badəni içmək istəməyən cavanlara onun mahiyyəti belə anladılır ki, bu, adi badə deyildir, nurdur, sevgililəri bir-birinə qovuşduran eşq badəsidir. Badəni içdikdən sonra aşiqin yaddaşına sevgilisinin adı, yaşadığı şəhər, məşuqənin kimin qızı olması bir daha həkk edilir"[1].

Hər iki folklorşünas butavermə motivi ilə bağlı ayrı-ayrı məqamlara toxunsalar da, müəyyən bir məsələdə yekdildirlər. Belə ki, hər iki tədqiqatçı butanın ilahidən gələn bir göndəriş olduğunu bu və ya digər dərəcədə vurğulayırlar. Ona görə də butavermə motivinin sakral gücə malik olması aydınlaşmış olur. Bu mənada butavermə motivinin yazılı ədəbiyyata keçməsinin mühüm sirlərindən biri də elə məhz həmin sakral güclə bağlıdır.

M.Süleymanlı da "Köç" romanında butavermə motivini əsərin süjet xəttinə daxil etmişdir. Romanda şaman funksiyasını daşıyan Qoşqar evinin qarısı gənc Alayın təlim-tərbiyəsi ilə məşğul olur. Hətta öləndən sonra belə Alayın yuxusuna girərək ona Qutluq qızı Çəməni buta verir. Əsərdə Qoşqar evinin qarısı, sadəcə olaraq, Alayın nənəsi kimi yox, müqəddəs bir varlıq təsiri bağışlayır. Bunun bir səbəbi ondan ibarətdir ki, Qoşqar evinin qarısı yalnız öz nəvəsi Alaya deyil, eyni zamanda Qutluq qızı Çəmənə də buta verir. İkinci səbəbi də odur ki, oxucu yaddaşı Qoşqar evinin qarısının simasında xeyirxah dərvişi, yaxud da nurani bir qocanı yenidən canlandırır.

Başqa bir məsələ butavermə hadisəsinin zamanı ilə bağlıdır. Belə ki, Qoşqar evinin qarısının müqəddəslik statusu butanın verilib başa çatması ilə də qurtarır. Yəni buradan belə bir nəticə çıxır ki, Qoşqar evinin qarısı butavermək səlahiyyətinə nə qədər malikdirsə, butanın özünün də qarını bir o qədər müqəddəsləşdirmək gücü vardır.

"Köç" romanında müəllif Alayı məhz məhəbbət dastanlarındakı haqq aşığının ekvivalenti kimi yaratmışdır. Əsərdə Qarakəllə tayfasından olan Alaya butanın verilməsi, onun buta ardınca Qanıq evinə getməsi, Alayın və onun butası Çəmənin ruh halı məhəbbət dastanlarının qəhrəmanlarının taleyi ilə səsləşir. Burada başqa bir cəhət də xatırlanmalıdır ki, dastanlarda olduğu kimi "Köç" romanında da buta qəhrəmana yuxuda verilir.

Elçinin "Mahmud və Məryəm" romanında isə biz butavermənin başqa bir variantı ilə rastlaşırıq. Burada alma ağacında yetişən armudu yedikdən sonra yeni statusa keçən Mahmuda bir növ buta verilir. Mahmud yeni statusa

---

[1]Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı: Elm, 2006, 647 s.

keçəndə bütün qəhrəmanlar kimi əvvəlki vərdişlərindən uzaqlaşır.

Yeri gəlmişkən, butavermə hadisəsinin M.Süleymanlının və Elçinin yaradıcılığında necə təzahür etməsinin fərqini də aydın görmək olar. Belə ki, M.Süleymanlının "Köç" romanında buta qəhrəmanlara – Alaya və Çəmənə su formasında verilir. Ondan fərqli olaraq, Elçinin "Mahmud və Məryəm" romanında butaalma şəklində görünür. Beləliklə, Elçinin yaradıcılığında butavermə hadisəsi folklor mətninə, folklor nümunəsinə daha yaxın formada reallaşmışdır. M.Süleymanlının yaradıcılığında isə həmin hadisə daha çox folklordan gələn təsəvvür aktı kimi meydana çıxmışdır.

II fəslin II yarımfəslinin ***"Quşaçevrilmə motivi"*** adlanan bəndində isə türk xalqlarında geniş yayılmış mifoloji motivlərdən biri olan quşaçevrilmə motivinin çağdaş nəsrimizdəki inikası öz əksini tapmışdır. Bu motivə İ.Muğannanın (Hüseynov) "İsahəq, Musahəq" (2000) əsərində rast gəlirik. Yazıçı bu motivin fonunda öz qəhrəmanları – Nailə və Rəşidin başına gələn hadisələri canlandırmışdır. Əsərin sonunda illərlə bir-birindən ayrı düşmüş əmiqızı-əmioğlu olan Nailə və Rəşidin bir-birini gec tapsa da, tez itirdiklərinin, yəni Nailənin ölümünün şahidi oluruq və sonda Rəşidin dilindən aşağıdakı cümlələri eşidirik:

"Hər şey röya kimi idi: Nalə!.. Nalə!.. Nalə keçinmişdi... Özü yoxdu, səsi qulaqlarımda idi. Daha doğrusu, onun səsi ilə mənim səsim: "Tapdınmı?" "Tapmadım!.." "Tapdınmı?" "Tapmadım!.."

Beləcə tapışıb, beləcə ayrıldıq.

İllər keçir, hələ də qərib-qərib ötürük: "Tapdınmı?" "Tapmadım!.." "Tapdınmı?" "Tapmadım!.."[1]

Qeyd edək ki, quşaçevrilmə motivinə Azərbaycan folklorunun el arasında daha çox yayılmış nağıl, əfsanə və rəvayət kimi janrlarında da rast gəlinir.

Dissertasiyanın II fəslinin II yarımfəslinin ***"Mağara motivi"*** adlı bəndindən də aydınlaşır ki, mağara motivi türk mədəniyyət və inanclarında olduqca əhəmiyyətli bir yerə malikdir. Çünki mağara insanın özünü yenidən reallaşdırdığı, öz mənini tapdığı, çevrilmə keçirərək həyata yenidən başladığı bir doğum nöqtəsidir. Əvvəlcə bağlı, qaranlıq və dar bir məkan olaraq görünən mağara zaman içərisində qəhrəmanın inkişaf prosesi baxımından müsbət, geniş və işıqlı bir məkana çevrilir. Prof. F.Bayatın da qeyd etdiyi

[1]Muğanna İ. Seçilmiş əsərləri. Altı cilddə. V cild. Bakı: Avrasiya press, 2009, s. 477

kimi, bütün təbii qapalı məkanlar, dağ və ya qaya dəlikləri, mağaralar türk mifoloji sistemində yeni bir həyatın, yeni başlanğıcın işarəsidir[1].

Y.Səmədoğlunun "Qətl günü" (1987) romanında tez-tez Baba Kaha – mağara obrazı ilə rastlaşırıq. Romanın mifoloji qatında özünəməxsus yer tutan bu obraz əsərin əvvəlindən sonuna kimi bir neçə yerdə yeraltı dünyaya keçid simvolu kimi verilmişdir: "Baba Kahanın oyumundan əsən külək o qədər güclü idi ki, bu qara və soyuq axarın sürətinə işıq da çatmazdı"[2].

Qeyd edək ki, mağara mifoloji inamlarla bağlıdır. Sakral aləmlə bu yer dünyası arasında uzanan keçiş məkanını təmsil edir. Mağara xaotik, qaranlıq aləmiylə struktursuz, amorf məkan kimi mifopoetik düşüncədə o biri dünya, yeraltı ölülər səltənəti ilə assosiasiya olunmuşdur. Bu, "Qətl günü" romanında da görünür. Sarıca oğlu Məhəmməd sərbazın "yolunuz haradı, qardaşlar?" – sualına "Baba Kahayadır" – deyə cavab verir.

Y.Səmədoğlu xalqın inam və etiqadlarını dərindən bildiyi üçün mağaranı məhz "Baba Kaha" adlandırır. Əsərin sonunda göstərilir ki, Baba Kahanın yerləşdiyi dağı partlatmağa gələn dörd nəfər istehkamçı-alpinist mənzil başına çata bilməmişdi: yolu yarı eləməmiş, Baba Kahanın oyumundan çıxmış qara duman kəndirə dönüb dördünü də boğmuşdu.

"Baba" türk xalqlarının ənənəvi dünyagörüşündə və mifik təfəkkürlərində ruh həyatı ilə bağlanan övliya, qoruyucu ruh və bu kimi varlıqların adında işlənən bir komponentdir. Burkut Baba, Zəngi Baba, Dehqan Baba, Yel Baba... kimi hami ruhların, mifoloji varlıqların və s. adlarında rast gəlinir. Bu barədə prof. C.Bəydili yazır: "Qədim türkcə "Babay" şəklində də işlənmiş olan sakral-ruhani səciyyəli bu söz müxtəlif türk dillərində "ulu ata" mənasını qoruyaraq əcdad ruhu ilə bağlı bir anlam ifadə etmişdir"[3].

Romanda daimi təkrarlanan kompozisiya konstantları – hökmdar və şair, Baba Kaha və Kirlikir antinomiyaları (təzadları) mövcuddur. Bu təkrarlanan elementlər vahid kompozisiya yaradır. Bununla yanaşı, hər epizod nisbətən müstəqil və tamdır, başqaları ilə paralel struktura sahibdir. Ənənəvi epizodlar paralel şəkildədir. Bir nəsr planından digərinə keçid – süjet xətlərinin paralel inkişafı mümkündür: mifoloji, tarixi və müasir. Bu əsəri xalq duyğu və düşüncəsindən ayrı təsəvvür etmək mümkün deyil. Bu mənada mifoloji ünsürlər romanın canına-qanına hopmuşdur. Başlıcası, o səbəbdən

---

[1]Bayat F. Türk mitolojik sistemi (Kutsal Dişi – Mitolojik Ana, Umay Paradigmasında İlkel Mitolojik Kategoriler – İyeler ve demonoloji). Cild 2. İstanbul: Ötüken nəşriyyat, 2007, s. 36

[2]Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, s. 11

[3]Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, s. 54

ki, bu əsərdə milli dastançılıq və romançılıq ənənələri üzvi şəkildə qaynayıb-qarışmışdır.

**"Çağdaş Azərbaycan nəsrində mifoloji zaman və məkan (dastan və nağıl xronotopu)"** adlanan **III fəslin** ***"Çağdaş nəsrdə xronotopdan istifadə üsulları"*** adlı *I yarımfəslində* çağdaş nəsrdə müasir qəhrəmanların və hadisələrin yer aldığı universal mifofolklor xronotopu, müasir bədii mətnlərin məkan-zaman quruluşunda şifahi ənənələrlə genetik bağlı olan zaman invariantlılığı, zamanın dövri konsepsiyası kimi məsələlər öyrənilir.

Həyat hadisələrinə, idrak məsələlərinə fəlsəfi münasibətin yarandığı və formalaşdığı, bədii əsərlərin ictimai mühitdə rolunun artdığı dövrlərdən başlayaraq həm fəlsəfədə, həm də ədəbiyyatşünaslıqda zaman və məkan anlayışları, eyni zamanda zaman və məkanın vəhdəti (xronotop) məsələsi həmişə mühüm anlayışlar sırasına daxil olmuşdur. Qeyd edək ki, xronotop (zamanla məkanın vəhdəti) terminini ilk dəfə fizika sahəsindəki kəşfləri ilə məşhur olan A.Eynşteyn işlətmişdir. İndi artıq ədəbiyyatşünaslıqda beynəlxalq termin kimi işlənən yunan mənşəli xronotop sözünün hərfi mənası "zaman-məkan" deməkdir. Bu termini hamıdan öncə bədii yaradıcılığa tətbiq edən M.M.Baxtin isə zamanla məkan arasındakı qarşılıqlı əlaqənin fikrin obrazlı əksində oynadığı rolu göstərmişdir.

Zaman və məkan məfhumları bir-birindən ayrı mövcud deyildir. Məhz buna görə ədəbiyyatşünaslıqda həmişə bu iki anlayış birlikdə tədqiq edilir və bədii əsərlərin məzmununda zaman və məkan vəhdətdə araşdırılır. Xüsusilə XX əsrdə meydana gələn modernizm və onun müxtəlif istiqamətlərində, eyni zamanda postmodernizm cərəyanında məkanın və zamanın vəhdətdə təsvir edilməsi həm fəlsəfi, həm də bədii cəhətdən böyük əhəmiyyət daşıyır.

Prof. A.Hacıyev bədii mətndəki zaman haqqında yazır: "Bədii əsərlərdə üç zaman qavrayışının müxtəlif qovuşuq variantlarından istifadə olunur. Müasir əsərlərin bir çoxunda keçmiş, gələcək hadisələr müəllif zamanına nəzərən toqquşdurulur"[1].

Bədii xronotop əsərin məna təşkilində mətnin vahid zaman-məkan kontinuumu kimi vacib rol oynayır. Mövcud araşdırmalarda xronotop bir qayda olaraq, personajların davranışı, inkişafı və əsərin süjet xətti ilə əlaqələndirilir. Buna görə də bir çox alimlər (M.M.Baxtin, D.S.Lixaçev, Y.M.Meletinski, Y.M.Lotman, V.V.İvanov və b.) tərəfindən hadisələrlə bağlı xronotop və müəllif təhkiyəsinin zaman-məkan rakursu fərqləndirilir. Mətnin ümumi xronotopu üç elementin kəsişməsi və qarşılıqlı əlaqəsindən yaranır.

---

[1]Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı: Mütərcim, 2002, s. 44

Bu üç məna sferasına aiddir: 1) müəllifin zaman-məkan nöqteyi-nəzərindən fikirləri; 2) əks olunan mühitin obyektiv zaman-məkan xarakteristikası; 3) xronotopun ənənəvi poetik janr aspekti.

Xronotopun birinci elementi – müəllifin zaman-məkan nöqteyi-nəzərindən fikirləri materialın poetik təhkiyəsinin xarakter və lokallığında meydana çıxır. İkinci aspekt – əks olunan mühitin obyektiv zaman-məkan xarakteristikası poetik düşüncənin tarixiliyi və xarici epoxal kontekstlə müəyyənləşir. Xronotopun üçüncü planı isə – xronotopun ənənəvi poetik janr aspekti ümumi poetik struktur, süjet xətti və həyatın şərti poetik modeli ilə əlaqəlidir.

Xronotopun bu tipləri təkcə nəzəri-tipoloji deyil, həm də tarixi spesifikaya malikdir. Miflərdə bu üç səviyyə bitişik olur, zahirən nəzərə çarpmır. Mifoloji xronotop faktiki olaraq insanlar üçün real hadisələri əvəzləyir. Özündə keçmişi, indiki zamanı və gələcəyi əhatə edən universal sistemi əks etdirir. Buna görə də miflərdə konkret zaman anlayışı yoxdur, hadisələr pan-xronik, zamandan kənarda cərəyan edir. Mütləq mifoloji xronotop daimi və abstrakt predmet və subyektlərdən təşkil olunur. Burada heç nə keçici və ölümlü deyil. Məfhum yalnız xarici formasını dəyişir, lakin o, mahiyyət etibarilə əbədidir.

Çağdaş nəsr əsərlərində mifopoetik təfəkkürün elementləri gizli, üstü-örtülü xarakter daşıdığına, yazının lap dərinliklərində olduğuna görə, burada özünü göstərən bədii zaman və məkan anlayışları da mifikdir, mifopoetik dünya modeli, mifoloji xronotop diqqəti cəlb edir.

III fəslin ***"Çağdaş nəsrdə nağıl xronotopu"*** adlı *II yarımfəslində* özünün bədii nəsri ilə ədəbiyyat tariximizdə xüsusi mövqeyi olan xalq yazıçısı Anarın utopik və antiutopik nağıllardan ibarət olan "Ağ qoç, qara qoç" (2003) əsəri təhlil olunur. Bu əsər özündə nağıl xronotopunu daşıması baxımından diqqəti cəlb edir. Anarın yaradıcılığında "Ağ qoç, qara qoç" poetika baxımından da yeni hadisədir. Başlıca cəhətlərdən biri, bəlkə də, birincisi budur ki, əsərin strukturunda mifoloji mətndən, mifik obrazlardan yaradıcılıqla istifadə olunmuşdur. Simvolik başlıqla adlandırılan əsər əslində iki povestin birləşməsindən yaranan, arxetipik struktur üzərində qurulan romandır.

Yazıçının ikinci nağılın əvvəlində verdiyi qeyddən məlum olur ki, utopik və antiutopik cəmiyyətdəki hadisələr eyni zamanda baş verir. Qeyddə deyilir: "İkinci nağılda cərəyan edən hadisələr xronoloji zaman etibarilə birinci nağılın davamı deyil. Bu iki bir-birinə alternativ olan olaylar eyni vaxt kəsiyində təsəvvür edilir"[1].

---

[1]Anar. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2004, s. 357

Bu əsər bir növ dünyada yaşayan və bir-birləri ilə müxtəlif sahələrdə – siyasi, iqtisadi və mədəniyyət sahələrində əməkdaşlıq etməyə çalışan türk xalqlarının vəhdəti ideyasını ehtiva edir. İkinci tərəfdən, əsərdə dərin duyğular, xəyallar, həmçinin mifoloji qatlar özünü göstərir.

Fil.ü.e.d. P.Bəkirqızı roman haqqında danışarkən qeyd edir ki, alt qatda daha arxaik olan nağıl süjeti, onun üzərində isə etnosun formalaşma çağlarının məhsulu olan dastan süjetinin qurulması tarixin mərhələli inkişafına işarədir[1]. Tədqiqatçının fikrincə, Anarın "Ağ qoç, qara qoç" əsərində "Məlikməmməd nağılı"nın xronotopu dekonstruksiya olunur. Bu şəkildə antiutopiya janrının qanunlarına uyğun olaraq yeni mifopoetik dünya modeli yaradılır.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, əgər Anar ötən əsrin 60-cı illərinin başlanğıcında cəmiyyət həyatının üst qatında yaşayan görüntüləri bütün yasaq və qadağalardan yan keçərək qələmə alırdısa, "Ağ qoç, Qara qoç"da yaşadığı yeni dövrün inkişaf və gedişat problemlərini, ziddiyyət və təzadlarını gündəmə gətirir, şüuraltdakı neqativ düşüncənin gözəgörünməz mifologizmini yaradırdı.

Dissertasiyanın III fəslinin ***"Çağdaş nəsrdə dastan xronotopu"*** adlı *III yarımfəslində* K.Abdullanın "Yarımçıq əlyazma" (2004) əsəri təhlil olunur.

Son illərdə Azərbaycan ədəbiyyatında postmodernist üslubda çoxlu əsərlər qələmə alınmışdır. Bu üslubda yazılan əsərlərin bir çoxunda paralelizm özünü göstərir. Paralelizm bədii yaradıcılıq üçün poetik priyomlardan biri olub bədii əsərin iki və ya üç elementi arasında paralel iki hadisənin qarşılıqlı müqayisəsidir. Bu cür qarşılaşdırma hadisələr arasındakı oxşarlıq və ya fərqlilikləri vurğulayır. Əsərin kontekstindən asılı olaraq paralelizm bədii ədəbiyyata müxtəlif məna çalarları və üslub gətirir.

Paralelizmdən istifadəni nümayiş etdirən postmodernist ədəbiyyatın nümunəsi kimi K.Abdullanın "Yarımçıq əlyazma" əsərini göstərə bilərik. Prof. A.Hacıyev yazır ki, müasir nəsrdə bədii zamanın folklorda mövcud olmayan bir tərəfi – müəllif zamanı meydana çıxmışdır. Müəllif zamanının mövcudluğu keçmişə qayıtmağa, gələcək hadisələri təsvir etməyə, müxtəlif zaman səviyyələrini müəllif zamanına nəzərən toqquşdurmağa imkan verir[2]. Bu fikirləri "Yarımçıq əlyazma" əsərinə də aid etmək olar.

---

[1]Bəkirqızı (İsayeva) P. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və təhsil, 2015, s. 214

[2]Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı: Mütərcim, 2002, s. 53

Romanda arxetipik süjetlər və janrlar dekonstruksiya edilir. Belə diqqətçəkən süjetlərdən biri də əsərin Dədə Qorqud motivləri ilə səsləşən hissəsindəki mifoloji obraz olan Təkgöz-Təpəgözlə bağlı olan süjetdir.

Romanda göstərilir ki, Bayındır xan Oğuz elində olan casusla bağlı məşvərət keçirir və bunun üçün o, Oğuz elinin Qazan xan, Beyrək, Bəkil və b. qəhrəmanlarını bir-bir sorğu-sual edir. Qorqud isə bu iclasda katiblik edərək Bayındır xanın göstərişi ilə söylənilən fikirləri, suallara verilən cavabları yazıya alır. Növbə Aruz Qocaya çatır. O, söhbət əsnasında oğlu Basatın bütün Oğuz elini qarı düşmənin – Təpəgözün əlindən necə xilas etdiyini danışır. Lakin qeyd edək ki, Təpəgözlə bağlı romandakı süjetlə eposdakı süjet arasında bir sıra fərqlər mövcuddur. Bu da son dərəcə təbiidir və şifahi nümunə ilə yazılı nümunənin fərqli mətn olması həqiqətinə söykənir.

Fil.ü.e.d. P.Bəkirqızı bu roman haqqında mülahizələrini belə ümumiləşdirir: "K.Abdullanın "Yarımçıq əlyazma" romanını roman-mif janrına tam aid etmək olmur, amma əsərin ümumi ruhunda böyük mifik anlamlarla – xaos və kosmosla, ölüb-dirilmə anlayışları ilə qarşılaşırıq. Əsərdə cəmiyyətin pozulmuş harmoniyasının bərpası elə mifdəki xaosun kosmosa çevrilməsinin yeni formasıdır"[1].

Əsərdə mif və yazı bir-birinə elə qarışır ki, bəzən onları ayırmaq mümkün olmur. Göründüyü kimi, mifik təfəkkürdə zamanın qavranılması son dərəcə özünəməxsus və mürəkkəb prosesdir.

Beləliklə, qədim epik-mifik ənənə ilə onun müasir "dekonstruksiyası" arasındakı qarşıdurmanı özündə əks etdirən "Yarımçıq əlyazma" romanında mifin, ədəbiyyatın və yazının hərəsinin öz yeri var.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat zamanı əldə edilən elmi nəticələr ümumiləşdirilmişdir. Belə nəticəyə gəlinmişdir ki, XX əsrin 80-ci illərindən etibarən mifologizm Azərbaycan nəsrində qabarıq şəkildə özünü göstərmiş, Elçin, Anar, Y.Səmədoğlu, M.Süleymanlı, K.Abdulla, S.Elcanlı və başqa yazıçıların dünyagörüşünün və bədii üslubunun vacib elementlərindən birinə çevrilmişdir. İnterpretasiya və transformasiya şəklində özünü göstərən mifologizmlər müasir həyat kolliziyalarını universal məna münasibətləri kontekstinə daxil etməyə və onların fəlsəfi yenidəndərkinə imkan verir.

---

[1]Bəkirqızı (İsayeva) P. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və təhsil, 2015, s. 186

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə əksini tapmışdır:**

1. İlyas Əfəndiyevin “Geriyə baxma, qoca” romanında mifoloji obrazların təhlili // “İpək yolu” jurnalı, Bakı, 2013, № 3, s. 76-81

2. Elçinin romanlarında mifologizm / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları. Bakı, “Mütərcim”, 2014, s. 566-568

3. “Ağ qoç, qara qoç”: mifoloji yaddaş və bu gün // “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər”. Elmi-ədəbi toplu, III. Bakı, “Elm və təhsil”, 2014, s. 92-99

4. Y.Səmədoğlunun “Qətl günü” romanında mağara obrazı – yeraltı dünyaya keçid simvolu / Azərbaycanşünaslığın aktual problemləri / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları: 2 hissədə, II hissə. Bakı, “Mütərcim”, 2015, s. 358-360

5. Yaradılışla bağlı kultlar və müasir nəsr // Filologiya məsələləri. Bakı, “Elm və təhsil”, 2016, № 2 s. 392-398

6. Çağdaş Azərbaycan nəsrində mifoloji roman (S.Elcanlının “Qanlı quzğun meydanı” əsəri əsasında) / “Ulu öndərin anadan olmasına həsr olunmuş “Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” beynəlxalq elmi konfransının materialları. Bakı, 3-5 may 2016-cı il. II hissə. Bakı: Mütərcim, 2016, s. 299-302

7. Образ Тепегеза (Циклопа): В эпосе и литературе // Казахский национальный педагогический университет имени Абая, Вестник Каз НУ Серия «Филологические науки». Алматы № 1 (55), 2016, с. 162-165

8. Müasir Azərbaycan nəsrində “butavermə” və “quşaçevrilmə” motivləri // “Dil və ədəbiyyat” beynəlxalq elmi-nəzəri jurnal. Bakı, №3 (99), 2016, s. 178-180

9. Çağdaş Azərbaycan nəsrində möcüzəli doğuluş motivi // “Dədə Qorqud” elmi-ədəbi toplusu. 2016 // II, s. 154-160

10. Müasir Azərbaycan nəsrində (1980-2010-cu illər) mifoloji elementlər / Gənc türkoloqların I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, “Elm” nəşriyyatı, 2017, s. 130-132

**Гюльнар Закир кызы Османова**

**Мифологизм в современной азербайджанской прозе (1980-2010-е года)**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Вовведении высказываются конкретные соображения об актуальности, о степени разработки исследования, об объекте и предмете, о цели и задачах, научной новизне, практической пользы диссертации.

В первой главе диссертации названной «Мифологические образы в современной азербайджанской прозе (1980-2010-е года)» выдвигаются определенные научные тезисы, связанные теоретическими аспектами, методами использования мифологизма, а также, в отдельных полуглавах изучаются природные культы в прозе и каждый из образов, связанных демонологией и непосредственно мифологическим мышлением. В этой главе речь идет об образах дерева, горы, воды и огня, связанных природными культами, об образах онгон, о таких демонологических образах как албасты, бес и сатана, о таких мифологических образах как Хызыр, дервиш и фея. А также, выявляются своеобразность обращений писателей к этим образам и использованные при этом творческие манеры.

Вторая глава диссертации названная «Мифологические мотивы в современной азербайджанской прозе (1980-2010-е года)» начинается с представления научных понятий о типологии мифологических мотивов и сюжетов в прозе. В этой главе исследуются причины вхождения в художественную систему мотивов чудотворного рождения, отдачи дани, превращения в птицу и пещеры в отдельных прозаических произведениях. Во второй главе диссертации также выясняются мифологические мотивы и сюжеты, использованные в прозе, а также их варианты и сравнения с азербайджанскими и мировыми фольклорными образцами.

Третья глава диссертации называется «Мифологическое время и пространство (хронотоп сказки и эпоса) в современной азербайджанской прозе». В этой главе анализируются методы использования хронотопа в современной прозе, хронотоп сказки, хронотоп эпоса и их своеобразные особенности. Исследуются такие вопросы, как универсальный хронотоп мифо-фольклора, где имеют место современные герои, инвариантность времени в современной прозе, генетически связанная с устными традициями в пространственно-временной структуре современных художественных тем и периодическая концепция времени.

В заключительной части диссертации обобщаются научные выводы, достигнутые во время исследования.

**Gulnar Zakir gizi Osmanova**

## The mythologism in modern Azerbaijan prose (1980-2010 years)

## SUMMARY

The dissertation work consists of the introduction, three parts, the conclusion and the list of used literature.

In the introduction the actuality of the investigation is based on, the object, aim and duties of the dissertation are definited, the scientific innovations, methods and sources, the practical and theoretical importance of the investigation are spoken about.

In the first part of the dissertation entitled "Mythological images in modern Azerbaijan prose (1980-2010)" the certain scientific theses are put forward which connected by the theoretical aspects, the methods of using mythologisms and also in some chapters the characters which connected with natural cults, demonology and directly mythological thinking in prose. In this chapter it is said about the images of tree, mountain, water and fire which associated with natural cults, the images of ongon, such demonological images as albasts (hal anasi), demon and satan, such mythological personages as Khizir, dervish and fairy. The peculiarity of the writers' appeals to these images and the creative manners used at the same time are also revealed.

The second part of the dissertation entitled "The mythological motifs in modern Azerbaijan prose (1980-2010)" begins with the presentation of the scientific concepts about the typology of the mythological motifs in prose. In this chapter the entry of the motifs of "the miraculous birth", "the giving bud" ("butaverme"), "the transformation to the bird" and "the motif of the cave" into the artistic system in individual prose works are investigated. In the second chapter of the dissertation the mythological motifs and plots used in prose, as well as their variants and comparisons with Azerbaijan and world folklore samples are also clarified.

The third part of the dissertation is called "The mythological time and space (the chronotope of a fairy tale and epos) in modern Azerbaijan prose". In this part, the methods of using the chronotope in modern prose, the chronotope of the fairy tale, the chronotope of the epos and their peculiar features are analyzed. Such questions as the universal chronotope of mythos-folklore where the modern heroes take place, the invariance of time in modern prose, genetically related to oral traditions in the structure of modern themes and the periodic conception of time are investigated.

In the conclusion the scientific results and conclusions got during the investigation are summarized.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

***На правах рукописи***

**ГЮЛЬНАР ЗАКИР кызы ОСМАНОВА**

# МИФОЛОГИЗМ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ (1980-2010-е ГОДА)

**5719.01- Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**БАКУ – 2017**